# Respublika rəsm müsabiqəsinin üçüncüsü




Hər bir yaradıcı şəxs hansı yaş qrupuna aid olmasından asılı olmayaraq Tanrının ona bəxş etdiyi qeyri-adi istedadı bir cür təzahür edir; kimsə poeziyanın, kimsə musiqinin, kimsə də rəsmlərinin dili ilə. Haqqında söhbət açmaq istədiyim bu yeniyetmə oğlan da öz yaradıcılıq məharəti ilə başqalarından fərqlənir. Kim bilir, bəlkə də onun taleyinə elə rəssam olmaq yazılıbmış. Bir-birindən rəngarəng rəsmlərinə baxdıqca dilində qüsur olan bu yeniyetmənin rənglərin dili ilə necə gözəl, səlis danışdığının, dərin çalarlarla zəngin olan düşüncələrini özünəməxsus ustalıqla necə ifadə etdiyinin şahidi olursan.

2003-cü ildə Goranboy rayonunda anadan olan Bayram İsmayılov 2009-cu ildə Bakının Şüvəlan qəsəbəsində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbinin I sinfinə qəbul olunub. Hazırda həmin məktəbin VII sinfində təhsil alır. Məktəbdə çalışqanlığı ilə fərqlənən Bayram həm də dərs əlaçısıdır. Hələ kiçik yaşlarından ibtidai sinifdə təhsil alarkən onun qeyri-adi istedada malik olması aşkar olunub. Rənglərlə işləməyə böyük maraq göstərən yeniyetmə müxtəlif rəngli kağızlardan rəngarəng əl işləri hazırlayıb.

O, “Təsviri incəsənət” və “Texnologiya” dərslərində xüsusilə fərqlənir. Ötən illərdə olduğu kimi, 2015-2016-cı tədris ilində də onun uğurları sevindiricidir. “Fövqəladə hallar uşaqların gözü ilə” mövzusunda keçirilən uşaq yaradıcılıq rəsm müsabiqəsində fərqlənərək mükafatlandırılıb. Bu günlərdə isə “Sülh naminə əməkdaşlıq hər kəsin şərəf borcudur” şüarı altında, YUNESKO-nun yaranmasının 70 illik yubileyi ilə əlaqədar “Sülh naminə birləşək” mövzusunda keçirilən Respublika rəsm müsabiqəsində iştirak edərək III yerə layiq görülüb.

İnanırıq ki, gələcəkdə onun uğurları daha çox olacaq, çəkdiyi rəsmlərlə fərqlənərək təhsil aldığı məktəbin adını ucaldacaq. Çünki Tanrı ona fitri istedad verib.

**Sifai SƏFƏROVA,**
*“Azərbaycan müəllimi”*